**UOT 1(09)**

# HİLMİ ZİYA ÜLKƏNİN DÜŞÜNCƏSİNDƏ BİRLİK, VƏTƏN VƏ MİLLƏT İDEYASI

**Prof. Dr. H.Haluk Erdem**
(Türkiyə, Ankara Universiteti)
halukerdem@gmail.com
DOI:10.30546/ifs.2021.1(36).49

**Xülasə.** Türk dünyasında yaşayan bir çox alim və ziyalılar millət və vətən haqqında çoxsaylı tədqiqatlar aparmışlar. Bu mütəfəkkirlər arasında Hilmi Ziya Ülkənin araşdırmaları xüsusi əhəmiyyətə malikdir. O milli birlik, millət, vətən, bəşəri vətənsevərlik, tarixi şüur kimi anlayışları izah etmiş, onları müxtəlif aspektlərdən fəlsəfi cəhətdən təhlil etmişdir. Ülkən bu anlayışları ifadə edərkən fəlsəfə, tarix və ədəbiyyat kimi əsas məlumat sahələrindən faydalanmışdır. Onun Türkiyədə çox tanınan "Çağdaş Düşünce Tarihi", "Tarihi Maddeciliği Reddiye", "Bilgi ve Değer", "Aşk Ahlâkı", "Millet ve Tarih Şuuru", "Eğitim Felsefesi" kimi əsərlərinin Türk düşüncəsinin zəngin fikir dünyasının inkişafında əhəmiyyətli rolu vardır.

Ülkən 1923-cü ildən 1948-ci ilə qədər olan zaman ərzində millət və tarixi şüur haqqında müxtəlif jurnal və kitablarda dərc olunan məqalələrini bir kitabda toplamış, millət və tarixi şüur, türk fəlsəfəsinin tarixi və tarix fəlsəfəsini dərindən müqayisəli təhlil obyektinə çevirərək bu sahədə yeni tədqiqatlar üçün zəmin hazırlamışdır.

**Açar sözlər:** Vətən, millət, tarixi şüur, humanizm, milli düşüncə, milli mədəniyyət, milli birlik, milli oyanış.

## IDEA OF UNITY, HOMELAND AND NATION IN THE THOUGHT OF HIKMI ZIYA ULKEN

**Prof. Dr. H.Haluk Erdem**

**Abstract.** In his research, the outstanding researcher Hilmi Zia Ulken philosophically analyzed such concepts as national unity, nation, Homeland, human patriotism, nation and historical consciousness from different angles. Hilmi Zia Ulken used various fields of science, such as philosophy, history, and literature, to express these concepts. He created the basis for new research in this field, turning the national and historical consciousness, the history of Turkish philosophy and the philosophy of history into an object of deep comparative analysis. In his research, abstract concepts-abstractions-were considered as the most sensitive and dangerous games of the human mind. According to Ulken, a nation cannot be represented without a homeland. In a word, the Motherland is the starting point and the basis of national activity in the consciousness of the nation. Hilmi Zia Ulken puts forward in her research the concept of the nation based on the concept of the Motherland, and brings to the fore the ideology of the Motherland as the point and basis of the movement of national values.

**Keywords:** Homeland, nation, historical consciousness, humanism, national thought, national culture, national unity, national awakening.

# РАЗМЫШЛЕНИЯ ХИЛЬМИ ЗИИ УЛЬКЕИ О ЕДИНСТВЕ, РОДИНЕ И ИДЕИ НАЦИИ

**Проф., д-р. Х. Халуг Эрдем**

**Резюме.** В своих исследованиях выдающийся исследователь Хильми Зия Улькен философски анализировал такие понятия, как национальное единство; нация; Родина; человеческий патриотизм; нация и историческое сознание - с разных сторон. Хильми Зия Улькен использовал различные области науки, такие как философия, история и литература, для выражения этих концепций. Он создал основу для новых исследований в этой области, превратив национальное и историческое сознание, историю турецкой философии и философию истории в объект глубокого сравнительного анализа. В его исследованиях абстрактные понятия (абстракции) рассматривались как наиболее чувствительные и опасные игры человеческого разума. По мнению Улькен, нация не может быть представлена без Родины. Одним словом, Родина является исходной точкой и основой национальной деятельности в сознании нации. Хильми Зия Улькен выдвигает в своих исследованиях понятие нации, основанное на понятии Родины, выдвигая на первый план идеологию Родины, как точку и основу движения национальных ценностей.

**Ключевые слова:** Родина, нация, историческое сознание, гуманизм, национальная мысль, национальная культура, национальное единство, национальное пробуждение.

## Giriş/İntroduction

Topluda böhrana girən dünyamızın ən başlıca səbəbləri kimi verilən mücərrəd anlayışlar araşdırılır. O, xüsusilə də mücərrəd anlayışlara, məfhumlara insan zəkasının ən həssas və təhlükəli oyunları kimi baxmışdır. İnsanlığın iftixarı olan bu təfəkkür məhsulları, ipi qaçırılan şarplar kimi, əvvəl bizə sonsuzca genişlənmənin və yüksəlmənin zövqünü daddırdıqdan sonra, o küləkdən bu küləyə atılaraq hara getdiyi bəlli olmadan boşluqda hərəkət edib duracaqlar. “Qəbahət məfhumlarda deyil, onları istifadə edə bilməyənlərdədir” (5, 3). Anlayışlar, ictimai həqiqətdən uzaqlaşma, təhlükəli şüarlara çevrilmə və insanları bir-biri ilə qarşı-qarşıya qoyma kimi böhranlar meydana gətirməkdədir. Eyni zamanda bir çox anlayışlar da bir-biriylə qarışdırılmışdır. Məsələn, insanlığın (humanizm) vətənpərvərlik və milliyyətçilik ilə təzad meydana gətirmədiyini vurğulayan Ülkən, problemin qeyd edilən anlayışın humanizm olaraq səhv istifadə edilməsindən qaynaqlandığını irəli sürür. Bu, insanlıq, kosmopolitizm və ya evsizlik ilə əlaqələndirilir.

Mücərrəd insan anlayışından doğan bütün hərəkətlər “köksüz və təkcəbhəli ideologiyaların yarım münəvvəri arasında” yayılarkən, konkret və gerçək insan anlayışından doğan hərəkətlər isə “hər fikri və təşəbbüsü vətən və həqiqətdən nəticə çıxardıqları mevhumluqla sünnülük və mənfiliklə əlaqələri qalmayacaqdır.” (5, 194-195). Ülkənin konkret millət anlayışı vətənə əsaslanır. Bir sözlə, millət vətənsiz təsəvvür edilə bilməz. Vətən millətin düşüncəsində milli fəaliyyətlərin başlanğıc nöqtəsi və əsasını təşkil edir. Millət, vətən və yurd arasında fərq yoxdur. Onun bu nöqtədə, Namiq Kamal və Mehmet Akif Ərsoyu istisna edərək, bir tənqidi vardır: " (5, 200) Nədənsə millət problemini əsas tutan və bunun ətrafında düşünənlər yurd problemini ikinci plana buraxdıqları üçün ona lazım gələn əhəmiyyəti verməyiblər. Elmi tədqiqatlara əsaslanan millət məfhumu birinci plana keçdi” (4, 189). Halbuki birtərəfli və mücərrəd fikirlər bir tərəfə, konkret və həqiqi insan təsəvvüründən irəli gələn Vətən anlayışı bizə bu xüsusu açıqlayır: “Ziddiyyətləri ortadan qaldıran birlik, Vətəndən güc alan insanlıq hissi və ya insanlıqdan güc alan Vətən sevgisini əldə edirik. (4, 195). Ülkən, qısa şəkildə desək, Vətən anlayışına əsaslanan millət anlayışını irəli sürür və milli dəyərlərin hərəkət nöqtəsi və əsası kimi Vətən məfhumunu ələ alır.

O, “Millətin oyanışı” adlı kitabında bildirirdi ki, “hadisələr bizə onu göstərdi ki, millət hər şeydən əvvəl sərhədləri tarixdə hazırlanmış və mübarizələrlə çəkilmiş olan bir Vətən anlayışına əsaslanır”. Ülkən fikrin davamı olaraq qeyd edirdi ki, millət bu vətəndə eyni dil və duyğu ilə bir mədəniyyət ittifaqı təsis edən, tarixdən qalan və ya bu gün önə çıxmaq istəyən hər hansı bir sinifə məxsus rejimin qurulmasına fürsət verməyəcək şəkildə dövlət ilə vəhdət təşkil edən şüurlu xalq küt-

ləsidir" (2, 56-57).

Ülkənin Vətən, birlik, millət haqqındakı fikirlərində ən əsas rol oynayan düşüncələrini xatırlamaq yaxşı olardı. Həmin düşüncə türk millətinin necə təşəkkül etdiyi sualına verilən ən münasib cavabdır: "Türk milləti etnik cəhətdən Orta Asiya Turan xalqlarından olan Oğuz türklərinə, Vətən baxımından tarixi bir təşəkkül olan Anadolu və Rumlara, dini cəhətdən İslama, mədəniyyət baxımından müasir millətlərin mədəniyyətlərinə bağlı olan, lakin bu elementləri yan-yana gətirməyə lüzum olmayacaq şəkildə min ildən çox bir zaman ərzində onların qaynayıb-qarışmasından, bir Vətəndə mədəniyyət birliyinin inşa edilməsindən meydana gəlmişdir" (4, 309).

Vətənlə tarixi şüur arasında da bilavasitə əlaqə vardır. "Tarixi şüur Vətən anlayışını o qədər bariz hala gətirir ki, əvvəlki bütün keyfiyyətlər onun daxilində xüsusi bir rol oynayır və bir-biriləri ilə qaynayıb-qarışırlar" (4, 306). Ülkənə görə millətolma hərəkatlarının əsası milli iradəni təşkil edən müstəqillik mübarizələrindən ibarətdir. Ülkən deyir: "Öz tarixi şüurumuz bugünkü mövcudluğumuzun köklərini ortaya çıxaran və sosial şəxsiyyətimizin heyətini müəyyənləşdirən bir şüur olmalıdır". Xalq hekayələrimizə, dastanlarımıza, bir sözlə milli mədəniyyətimizə nəzər yetirilməsinin əhəmiyyətini xüsusi olaraq vurğulayan Ülkən öz fikirləri ilə böyük maraq doğurur. "Qarşımızda bu işin dahi nümunələri və ölkəmizdə bu işin bütün xam maddəsi olduğu kimi durur. Anadoluda Kərəm, Koroğlu, Fərhad və Şirin, Tahir və Zöhrə, Şah İsmayıl, Aşıq Qərib, Arzu ilə Qənbər, Dərdiyoxla Zülfisiyah, Əliflə Mahmud və bir çox xalq hekayələri, dastanları hələ də sənət əsərlərinin mövzusu və müzakirə obyekti olmamış və toxunulmamış haldadır. Halbuki Avropa şəhərlərinə gedib Vaqnerin "Tristan və İsolda" əsərini dinləyirik; Hötenin "Faust" əsərini oxuyuruq. Dilimiz bütün mədəniyyətimizin və düşüncəmizin qəlibi və əsası olduğu üçün milli mədəniyyət işinin, ilk növbədə milli dilə əsaslandığını deməyə lüzum varmı? Bilmirəm... Mümkün olduğu qədər dilimizi xarici sözlərdən təmizləmək!" (4, 208-211).

Görünür, Vətən sevgisi bir şeyin əsası və hərəkət nöqtəsi, mədəniyyət isə Vətəni tarix şüuru ilə gördüyümüz an qarşımıza çıxan bir dəyərdir.

Ülkənin əsərlərində əhəmiyyətli dərəcədə əsaslandırdığı başqa bir məsələ bəlkə də tarix fəlsəfəsini nəticələndirdiyi və vətəni tarix şüuru ilə əlaqələndirdiyi nöqtədir. Ona görə "öz tarixi şüurumuz, bugünkü mövcudluğumuzun əsaslarını ortaya çıxaran və sosial şəxsiyyətimizin heyətini müəyyənləşdirən bir şüur olmalıdır" (5, 208).

Ülkənə görə həqiqət ideal olanla kamil olanın vəhdətini reallaşdıran insani vətənpərvərlikdədir. "İnsani vətənpərvərlik insani ideala vətən həqiqətindən başlamaq, insanlığı vətəndən yola çıxaraq reallaşdırmaq və vətənin ona verdiyi rəng ilə insanlığa doğru addım ataraq bir şəxsiyyət olmaqdır" (3, 55).

Onun fikrincə görə vətəni "qüvvətli şəkildə sevmədən, xalqın siyasi və ən yaxın iztirabına şərik olmadan bəşəri əxlaqa qovuşmaq mümkünsüzdür".

Bütün məsələ etiqadları və sosial fərdləri bir-birinə bağlamaqdır. Belə olduqda cəmiyyətdəki nizam "güclü" və "həmrəy" ola bilər. Vəziyyətin davamlı şəkildə gücləndirilməsi və inkişaf etdirilməsi isə ümumi inkişafa zəmin yaradar. Beləliklə, ideal etiqadların əhəmiyyəti burada ortaya çıxar. Bu etiqadlar bizi daha yaxşı olmağa, olması lazım olan vəhdətə götürər. Cəmiyyətin üfüqünü genişləndirər və tamamlayıcı bir dəyər olar. Hər şeyin ideal olanda olduğunu deyib reallıqdan uzaqlaşmaq da olmaz. Ülkənin ifadəsi ilə desək, "torpaqla və gerçəyin növləri ilə təmasını kəsərək buludlarda gəzmək" mümkündür. Əsas odur ki, reallıqla idealı qovuşdurasan. Vətən reallığı ilə, Vətənə olan birbaşa sevgi ilə Vətənin özünəməxsus xüsusiyyətlərini birləşdirmək lazımdır.

Ülkən birlik haqqında danışarkən, Qəzzalinin fil misalından istifadə etdiyini də xatırlamaq yerinə düşərdi: "Bir filin ətrafında bəzi korları toplayıb, onlardan bu qəribə heyvan haqqında düşüncələrini dilə gətirmələri istənilir. Korlardan hər biri filə fərqli tərəflərdən toxunduqları üçün ona müxtəlif təriflər verirlər. Kimi filin quyruğunu tutduğu üçün fili bir kisəyə, kimi filin xortumunu tutduğu üçün onu bir ağac budağına bənzətmiş, lakin heç kim filin həqiqətdə nə olduğunu bilə bilməmişdir" (3, 58).

Həqiqət hamımızın ittifaq etdiyi gerçəkliyi ehtiva edir. İttifaq içində olma, Ülkənin də

vurğuladığı kimi, lazım gələndə "iştirak etməmə siyasəti" ilə də əlaqəlidir. Onun fikrincə belə bir siyasət "birbaşa insani vətənpərvərliyin hərəkətə keçməsidir. Belə bir siyasət tarix boyunca təcrübədən keçirilməmiş və inkişafda olan humanizmə qapı aralamaq, lakin etiqadını məhv edərək ideala doğru açılarkən, ona əsas təşkil edəcək milli gerçəyi pozan, sözdə etiqadlara və millətlərə hücüm etdiyini gizlədən, fikir və iqtisad imperializminə qarşı qapılarını və ruhlarını var gücü ilə bağlamaq siyasətidir. Bu siyasət, imperialist millətlərin hadisələrə inancımızı və şəxsiyyətimizi əritməkdən başqa bir işə yaramayan sərvətinə, nəşrlərinə qarşı var gücü ilə iştirak etməmək siyasətidir." (3, 66). Bu ifadələrdən göründüyü kimi, milli bərabərliyin əldə edilməsi qədər qorunması və gücləndirilməsi də əhəmiyyətlidir. Bu gün beynəlxalq siyasətdə ölkəmiz üzərində oynanılan oyunlara qarşı tədbirli olmaq lazımdır.

Ülkən Vətən sevgisinin tarix şüurundan ayrılmadığı fikrini və öz tarixi və mədəni köklərimizin zənginliyinin yenidən işlənilməsinin əhəmiyyətini qeyd edir. Türk dünyası olaraq dil, fəlsəfə, musiqi, folklor, ədəbiyyat və tarix başda olmaqla çox zəngin mədəni mirasa sahibik. Ülkən öz düşüncəsini bu sözlərlə ifadə edir: "Tarixi şüur öz varlığımızın köklərini tanımaq və bugünkü həyat potensialımızı aydınlatmaq olduğuna görə bu işdə ölkənin tarixi qədər indiki halını da təfsilatlı şəkildə bilməyimiz vacibdir. Vətən sevgisi və sosial hafizəyə bağlı olmaq... Bu sosial diaqnostik bizi yolumuzdan çıxara bilməz. Özümüzü olduğumuzdan başqa şəkildə tanımaq, əsla, tanımaq deyildir. Belə bir hərəkət özünə güvənməyə deyil, xəyalpərəst olmağa səbəb olacağı üçün bu yolda atılan addım həqiqi mədəniyyət inşasının əleyhinədir. Vətən sevgisi və yaradılış imanı ilə sosial "mərifət-i nəfs"ə nail olsaq, əxlaq, iqtisadiyyat, sağlamlıq, təhsil problemlərini, şəxsən başqa millətlərdən alınmış mücərrəd iddialar çərçivəsindən çıxarıb, ölkəmizin öz şərtlərindən meydana gələn və öz şəxsiyyətinin tələbləri istiqamətində öz problemləri halına gətirərik" (5, 426).

**Nəticə/Conclution**

Hilmi Ziya Ülkən düşüncəsinin hərəkət nöqtəsi olan əsl həqiqət Vətəndir. Vətən sevgisi tarix şüurundan ayrılmaz. Bu şüur vətənin üzərində yaşayan hər kəsin öz tarixi və mədəni köklərinə nəzər yetirməsinin yolunu açır. Bu məqamda dil faktoru mühüm bir amil kimi qarşımıza çıxır. Ülkən bu gün böyük təsir gücünü gördüyümüz universal imperialist münasibətlərin təhlükəsinə qarşı bizi tənbeh edir (1, 126). "Milli mədəniyyətlərin yaşama haqqını tanımayan, zor tətbiq edən başqa hərəkatlarla da qarşılaşırıq. Bu hərəkat hər millətin öz vətən sərhədləri içindəki şəxsi mədəniyyətini tanımaq istəmir. Tarix şüurlarını inkar edir" (4, 306). Ülkən tarixin bizdən, bütün millətlərin etdikləri kimi öz şüurumuza sahib çıxmağımızı tələb etdiyini dəfələrcə xatırladır. Öz şüurumuza sahib çıxmağımızın Vətən sevgisi ilə dolu bir millət kimi mədəniyyət həyatımıza töhfələr verməyin məsuliyyətlərimizlə əlaqədar olduğunu xatırlatmaq vacibdir.

**İstifadə olunmuş ədəbiyyat/Reference**

1. Erdem, H.Haluk. Hilmi Ziya Ülken'in Kendi Kaleminden Hayatı ve Eserleri, *Türk Yurdu*, sayı: 174, Ankara, 2002.

2. Ülken, Hilmi Ziya. *Milletlerin Uyanışı*. İstanbul: Marmara Kitabevi, 1945.

3. Ülken, Hilmi Ziya. *İnsani Vatanseverlik*. İstanbul: Ülken Yayınları,1998.

4. Ülken, Hilmi Ziya. *Millet ve Tarih Şuuru*. İstanbul: Türkiye İş Bankası Kültür Yayınları, 2008.

5. Ülken, Hilmi Ziya. *Millet ve Tarih Şuuru*. 3. Basım, İstanbul: Türkiye İş Bankası Kültür Yayınları, 2016.

**Göndərilib: 29.03.21** **Qəbul eidlib:08.05.21**